## 2023 – "Heydər Əliyev İli"



# "Heydər Əliyev və Azərbaycanın yeni neft strategiyası"

## "Heydər Əliyev İli" çərçivəsində mühazirələrin təşkilinə start verilib




Martın 28-də "Heydər Əliyev İli" çərçivəsində Elm və Təhsil Nazirliyinin dəstəyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanın yeni neft strategiyası" mövzusunda mühazirələrin təşkilinə start verilib.

Tədbirin açılış mərasimi və tələbələr üçün ilk mühazirə Bakı Ali Neft Məktəbində (BANM) təşkil olunub.

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi ilə tanış olublar.

Dövlət Himni ilə başlayan tədbirdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

SOCAR-ın mətbuat katibi Orxan Hüseynovun moderatorluğu ilə keçirilən tədbirdə "Heydər Əliyev İli" çərçivəsində təşkil olunacaq mühazirələr haqqında ümumi məlumat verilib, daha sonra "Ulu Öndər və Azərbaycan gəncləri" adlı videoçarx nümayiş etdirilib.



Açılış nitqi ilə çıxış edən BANM-in rektoru Elmar Qasımov Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən elm və təhsil sahəsində əldə olunan mühüm nailiyyətlərin təməlini qoyduğunu vurğulayıb.

SOCAR-ın vitse-prezidenti Xalik Məmmədov 1990-cı illərin əvvəllərində Azərbaycanın üzləşdiyi ağır böhran vəziyyətindən bəhs edərək Ümummilli Liderin yeni neft strategiyasının uğurlu icrası nəticəsində yalnız neft sənayemizin deyil, bütövlükdə ölkəmizin hərtərəfli inkişafının təmin olunduğunu qeyd edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək Heydər Əliyevin ölkəmizin ən yeni tarixində müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni əsaslarını yaradan və inkişafını təmin edən qüdrətli şəxsiyyət olduğunu bildirib.

Firudin Qurbanov gənc nəslin vətənpərvər ruhda yetişdirilməsi, istedadlı şəxslərin üzə çıxarılması, dünyanın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi istiqamətində Ümummilli Lider tərəfindən görülən işlər barədə ətraflı məlumat verib. Nazir müavini əsası Ulu Öndər tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasəti nəticəsində vətənpərvər ruhda yetişən gənc nəslin 44 günlük Vətən müharibəsində ölkəmizin qazandığı möhtəşəm qələbədə mühüm rol oynadığını diqqətə çatdırıb. Firudin Qurbanov Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında misilsiz xidmətlərinin xalqımızın tarixi yaddaşında daim yaşayacağını vurğulayıb.

Qeyd edək ki, il ərzində keçirilməsi nəzərdə tutulan silsilə mühazirələr ölkəmizin aidiyyəti ali təhsil müəssisələrində təşkil olunacaq. Habelə, bir sıra orta məktəb şagirdlərinin SOCAR-ın müxtəlif müəssisələrinə səfərləri baş tutacaq.



# Azərbaycanın neft sənayesinin inkişafında Heydər Əliyevin misilsiz xidmətləri

Ümummilli Lider Heydər Əliyevin böyük uzaqgörənliklə və qətiyyətlə həyata keçirdiyi məqsədyönlü, irimiqyaslı və çoxşaxəli iqtisadi siyasət nəticəsində bu gün neft onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin və rifahının təmin edilməsinə yönəldilmişdir. 1969-cu ildə respublikamızda rəhbərliyə başlayan Ulu Öndər milli iqtisadiyyatda tarixən həlledici rol oynamış neft sənayesinin əvvəlki şöhrətini özünə qaytarmaq, mövcud təbii və intellektual potensialdan səmərəli istifadə etməklə bu sahənin dinamik inkişafına nail olmaq vəzifəsini qarşıya qoydu. Neft sənayesinin innovasiyalar üçün münbit olduğunu yaxşı bilən Heydər Əliyev özünəməxsus böyük uzaqgörənlik nümayiş etdirərək, ümumittifaq neft sənayesinin inkişaf perspektivlərini təmin edən bir çox təsisatları elmi-tədqiqat institutlarını, istehsalat birliklərini, mühüm strateji müəssisələri Bakıda cəmləşdirdi. Məqsəd Azərbaycanın neft təsərrüfatının modernləşdirilməsini həyata keçirməkdən və respublikamızı yenidən iri neft mərkəzlərindən birinə çevirməkdən ibarət idi.

Ötən əsrin 60-cı illərində neft sənayesinin inkişafının xeyli ləngiməsinin səbəbləri və təsiredici amilləri tam şəkildə araşdırıldıqdan sonra bu sahənin qısa müddətdə kompleks şəkildə dirçəldilməsi üçün Ulu Öndər Heydər Əliyev tərəfindən ciddi qərarlar qəbul edilmişdir. Ümummilli Lider bir milyardıncı ton Azərbaycan neftinin çıxarılmasına həsr olunmuş yığıncaqda neft sənayesindəki vəziyyətin dərindən təhlili əsasında nöqsanların aradan qaldırılması yollarını göstərmiş, məsələ ilə bağlı konkret vəzifələr müəyyənləşdirmişdir.

Bundan sonra, Azərbaycanın neft və qaz sənayesinin, xüsusilə dənizdə neft hasilatının inkişaf tarixində yeni mərhələ başlamışdır. 1970-ci ildə "Xəzərdənizneft" İstehsalat Birliyi (İB) yarandı və SSRİ Neft Sənayesi Nazirliyi Xəzərdə Azərbaycan neftçilərinin dəniz şəraitində iş aparmaq təcrübəsini nəzərə alaraq Xəzərin bütün sektorlarında geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar və digər işlərin aparılmasını Azərbaycan neftçilərinə həvalə etdi.

Bu tarixə kimi Xəzər dənizində istifadə olunan texniki vəsait yalnız dənizin dərinlikləri 40 metrə qədər olan sahələrdə işləməyə imkan verirdi. Həmin dövrdə Xəzərin Azərbaycan sektorunda 40 metrədək dərinlikdəki perspektivli sahələrdə, demək olar ki, bütün neft-qaz yataqlarının hamısı aşkar olunmuşdu. Dənizdə neft və qazın hasilatının artırılması daha böyük dərinliklərdə yatan neft və qaz yataqları ilə bağlı idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində alınan qurğular sayəsində dənizin 80-350 m dərinliyində zəngin neft ehtiyatlarına malik olan yeni yataqlar kəşf olundu. Nəticədə neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1983-cü ildə Qroznı-Bakı neft kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan Sovet İttifaqının vahid neft kəmərinə qoşuldu.

Bir-birinin ardınca kəşf olunan dəniz yataqlarında platformaların tikilməsi üçün nəzərdə tutulan və o dövrdə dünyada analoqu olmayan zavodun Bakıda yaradılmasına icazənin alınması, bu məqsədlə Sovet İttifaqının büdcəsindən böyük məbləğdə vəsaitin ayrılması, 1978-ci ildə əsası qoyulan sənaye nəhənginin 1984-cü ildə istismara verilməsi Heydər Əliyevin siyası müdrikliyinin, onun təşəbbüskarlıq və prinsipiallığının nəticəsində mümkün olmuşdu. Təsadüfi deyil ki, Ulu Öndərin adını ləyaqətlə daşıyan bu zavod indi də müstəqil dövlətimizin iqtisadi qüdrətinin möhkəmlənməsinə xidmət edir. Həqiqətən də Azərbaycanda həyata keçirilən qlobal enerji layihələrinin gerçəkləşməsində Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rolu danılmazdır.

Məhz böyük siyasətçi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanda neft emalı üçün xüsusi proqram hazırlanmış və həyata keçirilməyə başlanmışdır. Həmin proqrama əsasən yeni texnika və texnologiyaya malik zavodlar yaradılmış, qurğular inşa olunmuşdur. 1976-cı ildə Yeni Bakı Neftayırma Zavodu fəaliyyətə başlamışdlr.

İstehsalat nailiyyətləri ilə yanaşı, Ümummilli Lider Heydər Əliyevin neft siyasəti neftçilərə böyük qayğı ilə də xarakterizə edilir. Ulu Öndərin sovet dövründə respublikaya rəhbərliyi illərində neftçilər üçün tikilən mənzillərin sayı rekord həddə çatmışdı. 70-ci illərin sonlarında neftçilərin mənzilə ehtiyacı 95 faizdən də çox ödənilmişdi.

Təbii ki, bütün bunlar Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsi idi. O, çox yaxşı bilirdi ki, görülən bütün bu nəhəng işlər gələcəkdə müstəqillik qazanacaq Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını təşkil edəcəkdir. Tarix Ümummilli Lider Heydər Əliyevin haqlı olduğunu sübut etdi. Xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında ölkənin müstəqil inkişafının əsaslarından biri kimi Azərbaycan özünün yeni neft strategiyasını işləyib hazırladı.

**Saqib MƏMMƏDOV,**
*Mingəçevir Dövlət Universitetinin müəllimi*